Azərbaycan.- 2021.- 16 mart. S. 9.

# Naftalanda sürətlə böyüyən ağaclar əkilir





Gündən-günə abadlaşan Naftalana istər yerli, istərsə də xarici qonaqlar tez-tez gəlirlər. Onlar burada, əsasən, öz sağlamlıqlarını bərpa edirlər. Boş vaxtlarında isə şəhərin görməli yerləri ilə tanış olurlar.

Son illər bu unikal müalicə-kurort şəhərinin siması tanınmaz dərəcədə dəyişir. Şəhərdə hər il yeni park və xiyabanlar salınır. Xüsusilə yaz aylarında şəhərdə keçirilən yaşıllaşdırma aksiyaları buranı yaşıl zonaya çevirir.

Bu günlər şəhərdə daha bir aksiyaya start verilmişdir. Belə ki, şəhər ərazisində “pavlovniya” və “adəm” ağaclarının əkilməsinə başlanılmışdır. Qeyd edək ki, bu ağaclar dünyada sürətlə, yəni ildə 3 metrə qədər böyüyür və havanın çirklənməsinin qarşısını alır. Hündürlüyü 18-20 metrə qədər uzanan bu qiymətli ağac cinsləri 100 ilə qədər yaşaya bilir. Mebel, musiqi alətləri, bəzək əşyaları və ən əsası keyfiyyətli kağız istehsalı kimi bir çox sahələrdə istifadə olunan bu ağacların çiçəklərində bol bal ekstraktı olduğundan arıçılar onu bal gətirən ağac kimi də əkirlər. Gülləri nektarla zəngindir, alınan bal şəffaf və ətirli olur.



İlkin mərhələdə şəhərdə 300 ağacın əkilməsi nəzərdə tutulur.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***